# Aşıq Ağamurad

**İndi onu tanımayan yoxdur. Adı hörmətlə çəkilir. El içində xüsusi nüfuzu var. Ölçülü-biçili davranışı ilə həmkarlarından seçilir. Şirvan aşıq məktəbinin ən layiqli davamçılarından sayılır. Məlahətli səsi, kövrək avazı ilə ürəkləri riqqətə gətirir. Oxuduğu havalarda, havacatlarda tanınmış sənətkarları - Aşıq Şakiri, Aşıq Məmmədağanı, Aşıq Bəyləri xatırladır.**



Dəyərli oxucularımız söhbətin Aşıq Ağamuraddan getdiyini duymamış deyillər. Çoxlarının bu gözəl sənətkar haqqında kifayət qədər məlumatı var. Bu bilgini bir az da genişləndirmək məqsədilə el sənətkarı barədə müəyyən qeydlər etməyi lazım bildik.

İsrafilov Ağamurad Balamurad oğlu 1964-cü il iyunun 14-də Şamaxı rayonunun Mərzəngəli kəndində anadan olub. Səkkizillik məktəbi doğma kəndində, orta məktəbi isə M.Ə.Sabir adına qəsəbədə bitirib. 1983-1985-ci illərdə ordu sıralarında hərbi xidmətdə olub.

Uşaq yaşlarından aşıq sənətinə xüsusi marağı ilə diqqət çəkib. Dövrünün tanınmış ziyalısı, şair Nadir Mərzəngəli Ağamuradın yalnız dayısı deyil, həm də ilk sənət müəllimi olub. Sənətin sirlərini dayısından öyrənən Ağamuradın bir aşıq kimi yetişməsində əvəzsiz səsi, avazı ilə seçilən sənətkarların rolu da az olmayıb. Nəticədə Aşıq Baratdan, Aşıq Sərvətdən, Aşıq Xanmusadan bu müqəddəs sənətə dair çox mətləbləri mənimsəyib.

El məclislərinə 1988-ci ildən -14 yaşında ikən ayaq açıb. İlk ifasından sayılıb, seçilib, özünə çoxlu pərəstişkar toplayıb...

İndi onun səsi televiziya kanallarından, radio dalğalarından, müsabiqə və festivallardan, nüfuzlu tədbirlərdən gəlir. Aşıq sənətini bütün qüvvə və bacarığı, istedadı və ruhu ilə yaşatması, uluların, dədələrin ruhunu sazdan qərib düşməyə qoymaması ona olan məhəbbət və inamı birə-beş qat artırmışdır. Amil Çingizoğlu, Rza Məmmədov və başqalarının şagird kimi onun qulluğunda durmaları da buna bariz bir nümunədir.

Aşıq Ağamurad onların bir sənətkar kimi yetişmələri üçün əlindən gələni əsirgəmir, ifası və yaradıcı aşıq kimi özünün birbirindən oxunaqlı gəraylı, qoşma, təcnis, deyişmə və ustadnamələri ilə də şagirdlərini vaqif edir.

Aşıq Ağamurad bir sıra festival və müsabiqələrin laureatı olmuşdur. Onun səsi radionun qızıl fonduna daxil edilmişdir. Haqqında radio və televiziya kanallarında rəngarəng verilişlər getmiş, qəzet və jurnallarda məqalələr dərc olunmuşdur. Radio dalğalarında Şirvan şikəs-,Dastan, Aşıq musiqi işi verilişlərindəki saysız-hesabsız çıxışları maraqla qarşılanmışdır. Eyni sözləri Azərbaycan televiziyasının Sazın, sözün sehrində, Qaravəlli verilişlərində baş tutmuş ifaları haqqında da söyləmək olar.

Aşığın zəngin kitabxanası, sənət arxivi var. Keçmiş aşıqların lent yazıları, toy məclislərindəki ifaları, radio - televiziyadakı çıxışları , ünvanına gələn məktublar, dəvətnamələr, dövlət tədbirlərindəki çıxışları və s. göz bəbəyi kimi qoruyur.

Bu dərəcədə məşhurluğuna baxmayaraq Aşıq Ağamurad 1990-cı ildən çalışdığı doğma Mərzəngəli kənd klubunu atmır. 1992-ci ildən Azərbaycan Aşıqlar Birliyinin üzvüdür. Döyüş bölgələrində- Ağdamda, Füzulidə, Qubadlıda, Zəngilanda, Goranboyda, Tərtərdə dəfələrlə əsgərlər qarşısında çıxışları olub. Daha sonra bu ifaların coğrafiyası genişlənib. Aşığı Bərdə, Mingəçevir, Yevlax, Gəncə, Şəmkir və digər bölgələrdə yerləşən hərbi hissələr, bu hissələrin əsgər və zabitləri dinləyib.

Aşıq Ağamurad üçün 2007-ci il xüsusilə uğurlu olub. Həmin il o, Türkiyənin İğdır şəhərində Türkiyə Cümhuriyyətinin yaranmasının ildönümü münasibətilə təşkil olunmuş konsertdə çıxış edib. Səbuhi AMD.CD, Bakı maqnitafon kasetləri ASC.CD-də 3 disk-albomu buraxılıb.

Növbəti il bu uğur yenə də ürəkaçan olub. Aşıq Ağamurad Azərbaycan aşıqlarının qurultayında Şirvan aşıq məktəbinin istedadlı nümayəndəsi tək bu mötəbər tədbirə qatılıb. Azərbaycan Respublikası Mədəniyyət



və Turizm Nazirliyinin Fransanın Maison des siltires Assosiasiyası ilə birgə istehsalı- Aşıq musiqisi antologiyası disk-albomu CD işıq üzü görüb. Burada Aşıq Ağamuradın ifasına da yer ayrılıb. Bütövlükdə bu 4 albomda Aşıq Ağamuradın ifa etdiyi 34 hava var.

2009-cu ildə aşıq daha bir nüfuzlu tədbirin- Azərbaycan aşıqlarının 1928-ci ildə keçirilmiş I qurultayının 80 illiyinə həsr olunmuş Azərbaycan aşıq sənəti: müasir durum və inkişaf perspektivləri mövzusunda dəyirmi masa və bədii konsertin iştirakçısı olub.

2009-cu ilin iyunun 23-24-də Şamaxıda Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən Aşıq Bilal günlərində Aşıq Ağamurad I yerin qalibi kimi pul mükafatına layiq görülür. Belə götürəndə aşığın layiq görüldüyü çox mükafatlar olub.



**S.Ə.Şirvani adına Şamaxı rayon tarix muzeyində Aşıq Ağamurada aid xüsusi guşə də yaradılmışdır. Burada onun tərəfindən muzeyə təhvil verilmiş onlarla eksponat nümayiş etdirilir...**

**● TURAL**